İnşaat mühəndislərinin Avropa Şurası (European Council of Civil Engineers ECCE)-nın Baş Assambleyasının 65-ci toplantısı Türkiyənin Antalya şəhərində Crystal Tat Beach otelində 02-03 iyun 2017-ci il tarixdə keçirildi. Toplantı Türkiyənin İnşaat mühəndisləti palatası (TCCE) tərəfindən təşkil edilmişdi.

ECCE 1985-ci ildən fəaliyyət göstərir və bütün Avropa ölkələrinin inşaat mühəndisləri Assosiasiyaları burada təmsil olunurlar. SSRİ dağıldıqdan sonra bu quruma Latviya, Estoniya, Litva, Rusiya, Ukrayna, Gürcüstan ölkələrinin aidiyyatlı qurumları qoşulmuşlar.

Bakı şəhərində təsis edilmiş ,,İnşaat mühəndislərinin peşə inkişafına yardım,, (ACE) İctimai Birliyi ECCE yə üzv olmaq haqqında müraciət etmişdi. Toplantıda İctimai Birliyin İdarə heyətinin sədri Aydın Piriyev iştirak edirdi. Toplantıda ,,İnşaat mühəndislərinin peşə inkişafına yardım,, (ACE) İctimai Birliyinin təqdimatı oldu və İctimai Birlik ECCE üzvlüyünə qəbul edildi.





